*Musiqimizin Ağır İtgisi*

# MƏNSURİYYƏ ZİRVƏSİ

*(ixtisarla)*



Muğam sənətinin bel sütunu qırıldı, qaldıq altında-Yaqub Məmmədov dünyasını dəyişdi, daha doğrusu baş götürüb bu dünyadan getdi, göylərə çəkilib üzünü özünə tərəf çevirdi və üzünü özünə tərəf çevirən kimi yenidən doğuldu, doğulan kimi də başladı oxumağa-bu dəfə bəndələr üçün oxumurdu, Allah hüzurunda idi....

Muğam sənətinin bel sütunu...

Bu çox nəhəng əzəmətli bir sutunudur-Azərbaycan musiqisi təpədən dırnağa bu bel sütunundan-bu beldən gəlib, bunun oyan – buyanı yoxdur. Muğam sənətimizin bel sütununun o başı Cabbar Qaryağdı oğlunun çiynində olubsa, bu başı da Yaqub Məmmədovun çiynində olub. Cabbar Qaryağdı oğlu ilə Yaqub Məmmədovun arasında görün kimlər olub-keçəçi Məhəmməd, Segah İslam, şəkili Ələsgər, Seyid Şuşinski, Xan Şuşinski, Zülfi Adıgözəlov, Mütəllim Mütəllimov, Ağabala Abdullayev və adlarını bu yazını yazanda xatırlamadığım bir sıra böyük sənətkarlar....

Azərbaycanın harasından baxsan Yaqub Məmmədov görünür və səsi eşidilir. Onu heç kəs əvəz eliyə bilməz, onun əvəzinə heç kəs oxuya bilməz. Və elə Yaqub Məmmədovun özü də özündən əvvəlki nəhəng sənətkarları əvəz eliyə bilmədi, onların əvəzinə oxumadı-öz əvəzinə oxudu və buna görə də çox nəhəng xanəndə oldu.

Uzun sürən ağır xəstəlikdən sonra vəfat eliyənlərin ölümünə adam o saat inanır. Qəfil ölümə isə inanmaq uzun illərin hesabına başa gəlir-qəfil ölümə qəfil inanmaq olmur, olmur... Yaqub Məmmədov da qəfildən quş kimi uçub getdi, göylərə çəkildi... İndi o göylərdən, lap yuxarıdan baxır bizlərə – aşağılara baxır. Yaqub Məmmədov yuxrıların,-göylərin adamı idi – onun yerdə bizlərin arasında nə işi vardı ki....

**Seyran SƏXAVƏT,**
*yazıçı*

*Yazı bütünlüklə 525-ci qəzetin 10 avqust 2002-ci il tarixli nömrəsində dərc olunmuşdur.*